**İradə möcüzəsı**

*Sizə xəstə demək? Gəlməyir dilim,*
*Sağlamlıq dilərəm, Heydər müəllim!*

*Urək günəş kimi*
*nur saçan zaman*
*Talelər sığınır hər zərrəsinə.*
*Zəka iradəylə qovuşan zaman*
*Dönür iki əsrin təntənəsinə.*
*İlahi qüdrət var*
*məğrur insanda*
*B u qüdrət nadirdir dünya üzündə.*
*Mətin iradələr yıxılanda da*
*Daha da ucalır insan gözüində.*
*Bu sifət yaraşır*
*Müqəddəslərə,*
*Adıyla ürəklər çıraqban olur.*
*Xeyirxah insanlar, cılız kəslərə*
*Böhtan yazsa belə, mehriban olur.*
*Kişi kişi kimi*
*Yaşasın gərək,*
*Kişilik deyildir*
*Dərdə sevinmək.*
*Günəş üfüqlərdən*
*yerə ensə də*
*O nun həmdəm olur uca baxtına.*
*O, özü qəfildən xəstələnsə də*
*Sağlamlıq diləyir doğma xalqına.*
*Yurda qanad verdi*
*şöhrətim üçün*
*Burda hər qarışda zər dəfinə var.*

*80 yaş nədir ki, millətim üçün*
*Ələsgər ömrünə bir qərinə var!*
*Arzu işığına yol gedirəm mən,*
*İnam üstələyir insan səbrini.*
*Sabahkı əmrini eşidirəm mən:*
*"Doğma Qarabağa hücum" əmrini.*
*Qəzəbi üzdədir,*
*eşqi dərində,*
*Qadirdir mənəvi qələbəsilə!*
*Əməli salehlər yer üzərində*
*Möcüzə yaradır iradəsilə.*
*Möcüzə yaradır,*
*yaradacaqdır,*
*Onun inamı da, sözü də haqdı.*

***Nəbi Xəzri***

***27 a prel 2003-cü il***

***Azərbaycan. – 2003.- 4 may. – S.4.***